# Gənclərin sevinc günü

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin bir qrup fəal gənci Yeni Azərbaycan Partiyası (YAP) sıralarına üzv olmaq üçün partiyanın rayon təşkilatına müraciət etmişdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar tədbirlərin keçirilməsinə bütün təhsil müəssisələrində start verildiyi bir vaxtda həmin gənclərə partiya biletlərinin təqdim olunma mərasimi keçirildi.

Tədbiri giriş sözü ilə mərkəzin direktoru Eyvaz Kazımov açdı. O, bildirdi ki, Tədris Mərkəzinin gəncləri ölkə rəhbəri İlham Əliyev cənablarının siyasətini bəyənir, dəstəkləyir və dövlətimizin gələcək inkişaf yollarında öz töhvələrini vermək arzusundadılar. Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı YAP-nın sıralarına qəbul olunmaq gənclərimiz üçün böyük şərəfdir.



YAP Qəbələ Rayon Təşkilatının sədr müavini Elçin Tağıyev çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətləri, Yeni Azərbaycan Partiyasının keçdiyi yol və bu günü barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir.

Rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov bünövrəsi ulu öndər tərəfindən qoyulan və bu gün də uğurla davam edən gənclər siyasətindən danışmış, ölkə Prezidenti İlham Əliyevin gənclərə böyük diqqət və qayğısından söhbət açmışdır.

Sonra YAP sıralarına yeni qəbul olunmuş gənclərə üzvlik biletləri təqdim olunmuşdur.

YAP-ın üzvlük biletini alan gənclərdən Pərvin Mahmandarlı, Gülər Əmirzadə, Ramilə Fazilli çıxış edərək ümummilli liderin imzası həkk olunmuş üzvlik biletləri daşıdıqlarına görə, dünənin, bu günün və gələcəyin partiyası olan YAP-a qəbul olunduqlarına görə qürur duyduqlarını bəyan etmiş və Heydər Əliyev yoluna daim sadiq qalacaqlarını bildirmişlər.

Tədris Mərkəzinin tədris istehsalat işləri üzrə direktor müavini Reyhan Məmmədova çıxışında əminliklə qeyd etdi ki, bugünkü gənclər cəmiyyətimizin həyatında fəal mövqe tutacaqlar. YAP-ın hər bir üzvü kimi onlar da bu partiyanın, onun qurucusunun adına layiq olacaqlar.

**Gülər KƏRİMOVA,**
**tədris mərkəzinin**
**tərbiyəçi müəllimi.**
**Foto S. Umuyevindir.**

# İllər keçsə də

XX əsrdə məkrli qonşularımız və onların havadarları tərəfindən xalqımızın başına gətirilən Xocalı faciəsinin törədilməsindən 23 il də keçdi. Demək olar ki, əsrin dördə biri. Vətənimizdə və ondan kənarda xalqımıza qarşı törədilən bu soyqırımının ildönümü ilə bağlı çox sayda tədbirlər keçirildi. Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə artıq neçə illərdir ki, dünyanın hər yerində kecirilən «Xocalıya ədalət» komapaniyası bu il daha geniş miqyası və kütləviliyi ilə fərqləndi.

Xocalı hadisəsi elə bir faciədir ki, onu bir an unutmaq mümkün deyil. Ona görə də Xocalıda baş verənləri bütün reallığı ilə yeni nəslə və dünya ictimaiyyətinə çatdırmaq üçün tədbirlər daima davam etməlidir. Məktəbimizin kollektivi bu reallığı nəzərə alır və Xocalı faciəsi ilə əlaqədar tədbirləri dərs ili boyu davam etdirir. Bu məsələ artıq ənənə halını almışdır. Fevral ayında Xocalı hadisəsi ilə əlaqədar məktəbimizdə çox saylı tədbirlər kecirilmişdir və bu tədbirlər bu gün də davam edir. Şagirdlər tərəfindən hazırlanmış guşələr çox təsirlidir. Bu guşələrdə müxtəlif foto-şəkillər, həvəskarların çəkdikləri rəsm əsərləri ilə yanaşı Xocalının tarixinə, ermənilərin nə üçün bu hadisəni törətdiklərinə dair çoxlu məlumatlar var.

Azərbaycanın tarixində unudulması mümkün olmayan, bütövlükdə xalqın yaddaşına dərin iz salaraq onu daim mübarizə və qisas ruhuna kökləyən elə faciəli hadisələr var ki, heç zaman unudulmayacaq, Erməni faşizminin xislətini, gerçək mahiyyətini çılpaqlığı ilə açan Xocalı soyqırımı da məhz unudulması mümkün olmayan belə dəhşətli hadisələrdəndir. Azərbaycan xalqı bu dəhşətli hadisəni heç vaxt unutmamalıdır.

Ermənilər tarixdə baş verməmiş qondarma 1915-ci il soyqırımı mifini şişirdərək hər gün, hər saat bütün dünyaya car çəkdikləri halda bizim cəmi 23 il öncə bütün dünyanın gözü qarşısında başımıza gətirilmiş, tarixdə misli-bərabəri olmayan faciəni bir an belə unutmağa haqqımız yoxdur.

**Xəyalə BALAQƏDİROVA,**
**Qəbələ şəhər 3 saylı**
**tam orta məktəbin**
**müəllimi.**

# 5 Mart–Bədən Tərbiyəsi və İdman Gününə həsr edilmiş şahmat üzrə rayon birinciliyi

5 mart ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günüdür. Bu tarixin Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı tezliklə öz müsbət nəticəsini göstərərək Azərbaycanı dünyada idman ölkəsi kimi tanıtdı.



Artıq 10 ildir ki, Azərbaycanda 5 Mart—Bədən Tərbiyəsi və İdman Günü təntənə ilə qeyd olunmaqdadır. Qəbələ Rayon Gənclər və İdman İdarəsi müvafiq tədbirlər planına əsasən 5 mart tarixində yeniyetmə və gənclər arasında şahmat üzrə rayon birinciliyi keçirilmişdir.

Birinciliyin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək yarış iştirakçılarını salamlamış, təbrik etmiş və onlara uğurlar arzulamışdır. İştirakçılara bu günün yaranma tarixi barədə məlumat verərək bildirmişdir ki, bu tarix cənab Prezident İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 4 mart 2005-ci il tarixli sərəncamına əsasən qeyd edilir. Həmçinin birinciliyin keçirilməsində məqsəd yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etmək, şahmatın kütləviliyinə nail olmaqdan ibarətdir.

Rayon birinciliyində kənd, qəsəbə və şəhər məktəblərindən 50-dək oğlan və qız gərgin oyun nümayiş etdirmişlər. Yarışın yekunlarına əsasən oğlanlar arasında Mirzəliyev İsmayıl Elçin oğlu, Məmmədov Fuad Mehman oğlu, Hümbətli Nurlan Hümbət oğlu, Abdullayev Sabir Etibar oğlu, qızlar arasında isə Osmanova Nazan Akşin qızı, Kərimova Həcər Elçin qızı, Əfəndiyeva Nigar Yaşar qızı və Abdulkərimli İlahə Ərrəhman qızı I yeri tutmuşlar.

Qaliblərə rayon gənclər və idaman idarəsinin diplomları təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**Gənclər və İdman İdarəsinin**
**aparıcı məsləhətçisi.**

# Humanist tədbir—əhalinin pulsuz müayinəsi uğurlu keçir

Azərbaycan Resrublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında fevral ayının əvvəllərindən başlayan 18 yaşından yuxarı bütün vətəndaşların pülsuz tibbi müayinə kampaniyası davam edir. Kompaniyanın yüksək səviyyədə keçirilməsi üçün rayon icra hakimiyyəti başçısı sərəncam imzalamış, təşkilat komitəsi yaradılmış, tədbirlər planı təsdiq edilmişdir. Bu baxımdan rayonda humanist kampaniya mütəşəkkil surətdə və planlı şəkildə aparılır. Rayon mərkəzi xəstəxanasının və müalicə-diaqnostika mərkəzinin poliklinikalarında təcrübəli həkimlərdən ibarət qruplar yaradılmışdır. Rayon ərazisində və şəhər mərkəzində fəaliyyət göstərən təşkilatların kollektivlərinin və onların ailə üzvlərinin müayinədə mütəşəkkil iştirak etməsi üçün qrafiq təşkil edilmişdir. Son məlumata görə artıq 40.000-ə yaxın rayon əhalisi tibbi müayinədən keçmişdir. Ümumiyyətlə, rayonun 20 yaşayış məntəqəsində əhalinin tibbi müayinəsi tam başa çatdırılmışdır. Müayinə zamanı xəstəlik aşkar olunan 2444 nəfərdən 300 nəfərə yaxın xəstə sakin ambulator müalicəyə yazılmış, 35 nəfər isə stasionar müalicəyə götürülmüşdür. Daha ciddi xəstəliklərdən şübhə doğuran 90 nəfər isə yoxlanılmaq və ya müalicə üçün respublikanın ixtisaslaşdırılmış tibb ocaqlarına göndərilmişdir.

Rayon mərkəzi xəstəxanasının poliklinikasında müayinələr daha mütəşəkkil surətdə davam etdirilir. Poliklinikanın şöbə müdiri Orxan Məmmədov və həkim, Sahib Aslanbəyli bildirdilər ki, əhali ikinci ildir cənab Prezident İlham Əliyevin tapşırığı ilə kütləvi surətdə tibbi müayinədən keçirilir. Bu onu göstərir ki, əhalinin sağlamlığı ölkə başçısının və dövlətimizin diqqət mərkəzində olan əsas hədəflərdəndir. İllərlə həkimə gəlməyən insanlar indi tibbi müayinəyə gəlir, öz sağlamlıqları barədə məlumat alır və cənab Prezidentə bu humanist addım üçün dərin minnətdarlıq edirlər. Poliklinikamızda tibbi müayinə üçün hər cür şərait yaradılmışdır. Vətəndaşlar burada laborator, elektrokardioqrafiya, ultrasəs, rentgen və digər müayinələrdən rahat keçir, sonda bu aksiyanın təşkilatçılarına minnətdarlıqlarını bildirirlər.

Poliklinikada müayinə olunanlardan Həmzəli kənd sakini Əmanət Babayev, «Tufandağ» yay-qış istirahət kompleksinin işçisi Ramin Yusifovdan aldığımız müsahibə zamanı onlar bildirdilər ki, cənab Prezidentimizin tapşırığı onun vaxtilə «Mən hər bir ölkə vətəndaşının prezidenti olacağam»—deyə verdiyi vədinə bu gün də sadiq qalması bir daha xalqımıza, dövlətimizə sədaqətinin bariz nümunəsidir. Bu aksiya, əlbəttə, xalqımızın genefondunun, eləcə də vətəndaşlarımızın sağlamlığının qorunmasında yüksək əhəmiyyətli bir aksiyadır.

Poliklinikanın həkim heyətindən razılığını bildirən Böyük Pirəli kənd sakini Tərlan İsgəndərov qeyd etdi ki, bu kampaniya hər kəsin ürəyindən olan kampaniyadır. Həkimlərə gəldikdə həqiqətən onlar gördükləri bu xeyirxah işə ürəkdən yanaşır, hər birimizin sağlamlığının yoxlanılmasında əllərindən gələni əsirgəmirlər. Hər sahə üzrə bizi sorğu-suala tutur, sağlamlıq vəziyyətimizin düzgün araşdırılmasına, üzə çıxarılmasına səy göstərir və lazimi tədbirlər görürlər. Bu cür yoxlamalar necə də gözəldir. Hər kəs özü sağlamlığı haqqında doğru-düzgün məlumat əldə edir. Buna görə dövlətimizə, cənab Prezidentimizə minnətdarlığımı bildirirəm.

**N. ATAKİŞİYEV.**